

# Cehiz güzgüsü

(Hekayə)

İsi MƏLİKZADƏ

Toy gününə bir həftə qalmış Abdullanın evinə bərk qan-qaralıq düşdü. Abdulla eşitmişdi ki, qız köçürtmək ağır işdi, amma heç ağlına da gətirməmişdi ki, bu ağırlıq bapbalaca bir şeyin ucbatından olacaq. Qızın cer-cehizi çoxdan düzəlmişdi: iynə-üskükdən tutmuş mebeləcən hər şeyi vardı. Birdən duyuq düşdülər ki, güzgü yoxdu.

Abdulla rayon mərkəzindəki mağazalarda isbatlı, qiymətli güzgü tapa bilmədi.

Kənd mağazalarını bir-birinə vurdu, iki qonşu rayonun dükan-bazarlarını ələk-vələk elədi, di gəl ki, evə əliboş, kor-peşman qayıtdı və artırmada oturub onun yolunu gözləyən qohum-əqrəbasını da peşman elədi. Dişlərini qıcıyıb:

- Əlacın ola, bu mağazaları od qoyub odlayasan, - dedi, - Əşi, day güzgü buraxmırlar yəni?! Yəni bu camaata fərli güzgü lazım döyül?! Bay atonnan, belə də iş olar? Zənənnərin ciblərində gəzdirdiyi güzgüdən savay güzgü yoxdu mağazalarda! Güzgü də mənə bir matah olub! Tfu, zalım uşağı!

Heç kim başa düşə bilmədi ki, Abdulla ”zalım uşağı” deyib kimə tüpürür: güzgünü mataha döndərənlərə, yoxsa ayağını yerə dirəyib onu güzgü dalınca göndərən qohum-əqrəbaya?

Abdulla artırmanın qabağında sallağı oturub, yorğun-arğın dedi:

- Day güzgü-zad axtarmayacam.

Artırmada böyüklü-kiçikli, arvadlı-kişili on-on beş adam vardı, bu on-on beş adamdan kimsə - bir arvad xeylağı dodaqlarının altında mızıldadı?

- Güzgüsüz də gəlin olarmı, ay qağa?

Başqa bir arvad da onun sözünə qüvvət verdi:

-Güzgü adamın baxtıdı, qurban olum... Güzgü aydınlıqdı...

Abdulla hirsli-hirsli:

- Özümü güzgü qayırmayacam ha. - dedi.

Artırmadakı on-on beş nəfərin içində Abdullanın Nəsir adlı bir qohumu da vardı, Abdullanın rəhmətlik atası ilə Nəsirin rəhmətlik atası xalaoğlu idilər, elə Abdullayla Nəsir də bir-birlərinə ”xalaoğlu” deyirdilər. Toya hazırlıq məqamında Nəsiri də məsləhət-məşvərətə, köməyə çağırmışdılar, ancaq bu neçə gündə Nəsirin məsləhətinə, köməyinə ehtiyac olmamışdı.

Nəsir hiss elədi ki, indi onun kara gələn vaxtı çatıb. Əvvəlcə yerində qurcuxub kətili cırıldatdı, sonra boğazını arıtlayıb:

- Güzgünün fikrini çəkməyin, - dedi. - Güzgü mənim boynuma.

Hamı başını döndərib, bir az qıraqda oturmuş Nəsirə baxdı. Nəsir də gözlərini zillədi Abdullanın istidən pörtmüş üzünə.

-Xalaoğlu, cehizin içində güzgü mütləq olmalıdı, - dedi. Birinci kərədir qız köçürdürsən, adəti-filanı bilmirsən. Mənim dörd qızım var - allah hamınınkını xoşbəxt eləsin - hələ balacadılar, vaxt yetişəndə onlar da köçəcəklər. Qoymaram bir şeyləri də əskiy olsun. Qız ata öyünnən çıxanda gərək ürəyiaçıq çıxsın, kəm-kəsirsiz çıxsın. Bildin, xalaoğlu?

Abdulla, Nəsirdən beş-altı yaş böyük idi, amma indi Nəsirin danışığına qulaq asdıqca ona elə gəldi ki, Nəsir dünyagörmüş, ahıl kişidi və bu kişi Abdullanı qabağına qoyub ağıl verir ona. Abdulla, Nəsirin qalın, şəvə bığına baxa-baxa başını yellədi.

- Güzgü qəhədə çıxıb, xalaoğlu, - dedi. - Haqqını dörtqat, beşqat verrəm, kimdə var gətirsin. Yerini bilirsənsə, de, bu dəyqa gedim alım.

Nəsir:

- Yerini bilirəm, - dedi və susdu. Susdu ki, burda oturanlar gözlərini onun ağzına dikib nigaran qala-qala fikirləşsinlər ki, ”ayə, bu Nəsir allahın bəlasıdı, deyəsən. Abdulla neçə gündü həlak eləyib özünü, bir güzgü tapa bilmir, deyəsən, Nəsir tapacaq”. Nəsir gördü ki, doğurdan da, hamı gözünü dikib onun ağzına, nigaran-nigaran gözləyir, dedi: - Güzgü Bakıda. Ola bilməz ki, o boyda şəhərdə güzgü tapılmasın. Gedib, Bakıdan gətirəcəm güzgünü.

Abdulla qulaqlarına inanmadı. Bilirdi ki, çayçı Nəsirin bu rayondan qırağa çıxdığını barmaqla saymaq olar və çayçı Nəsir heç qonşu rayonlara əməlli-başlı bələd deyil, gəl ki Bakı ola. Çayçı Nəsir camaatın xeyrinə-şərinə çox yaramışdı, toylarda, yaslarda səhərdən-axşamacan samovarın yanında ayaq üstə dayanmışdı. Abdullagilin xeyir işində də çay məsələsi onun boynuna düşürdü - bunu Abdulla da bilirdi, qohum-əqrəba da. Amma Abdullanın da, qohum-əqrəbanın da ağlına gəlməzdi ki, xalaoğlu Nəsir bir güzgüdən ötrü vurub Bakıya gedər.

Abdulla gözlərini döyə-döyə:

- Xalaoğlu, - dedi, - bilirsən burdan Bakıya nə qədər yoldu?.. Dörd yüz kilometr.

Nəsir bığını tumarlaya-tumarlaya gülümsədi.

- Samalyotun əlində bir saatlıq yoldu, - dedi. - Toya bir həftə qalıb, bir həftənin içində Bakıya beş dəfə gedib qayıdaram. Hələ günorta olmayıb, samalyot saat ikidə çıxır burdan. Allah qoysa, bu gün olaram Bakıda, güzgünü alaram, səhər tezdən də avtobusnan çıxaram ordan. Allah qoysa, sabah axşam üstü burdayam... Sağlıq olsun, xalaoğlu, inşallah, mən də birinci qızı köçürəndə onun cehiz güzgüsünü Bakıdan sən alıb gətirərsən.

Hamı dedi ki, əhsən Nəsirə. Nəsir kişidi, kişi oğludu, qohum yolunda malından da keçər, canından da. Sonra məsləhət belə oldu ki, Nəsiri Bakıya tək buraxmasınlar - bəlkə kömək-zad lazım oldu ona - Abdullanın yeddinci sinifdə oxuyan oğlu Əlibalanı qoşdular Nəsirə. Sonra da ”yol gedəcəksiniz” deyib təzəcə dəmlənmiş aşdan ikisinə də ”partladım” deyincə yedizdirdilər...

Əlibala ömründə birinci dəfəydi ki, təyyarəyə minirdi. Sevinirdi ki, göydə uçmağın, göydən yerə baxmağın ləzzətini duyacaq. Sevinirdi və sevindiyindən dil-dodağı əsirdi, danışanda səsi titrəyirdi, amma Nəsirə elə gəlirdi ki, Əlibala qorxur. Tez-tez Əlibalaya: ”Qorxma”, - deyirdi. Əlibala da başını bulayıb: ”Qorxmuram”, - deyirdi.

Görəndə ki, yan-yörədəkilər dirsəkliyin böyründən sallanan enli kəmərlə özlərini oturacağa bağlayırlar, Nəsir Əlibalanı dümsüklədi.

- Özünü bu qayışnan sarı, ə. Gərək sarıyaq, yoxsa tərpənəndə yıxılarıq. - Nəsir nə illah elədisə də, kəmərin uclarını bir-birinə bənd eləyə bilmədi. Başa düşə bilmədi ki, hansını hansının içindən keçirtmək lazımdı. - Bu andıra nooldu, ə? - dedi və başladı sağ-soluna boylanmağa ki, görsün camaat bu ”andır” kəməri belinə nə təhər bağlayır.

Əlibala öz kəmərini çoxdan bağlamışdı. Əlini Nəsirin kəmərinin dilinə vurdu.

- Bunu keçirt o birisinin içinə, - dedi. Nəsir çiynini çəkdi.

- Keçmir, axı.

- Yanpörtü elə, keçəcək, - deyib Əlibala qoruyucu kəməri Nəsirin belinə bağladı.

Nəsir gülümsəyə-gülümsəyə:

- Məndə günah yoxdu, - dedi. -Başımın tükü sanı samalyotda yol getmişəm. Günah qayış qayıran zalım oğlundadı.

Təyyarənin motorları işə düşdü, təyyarə başladı tir-tir titrəməyə. Nəsir əlini Əlibalanın əlinin üstünə qoydu:

- Qorxma ha, - dedi. - Düz qabağa bax, o yan-bu yana baxsan, ürəyin qalxar. Mən deyən kimi elə. Mən başımın tükü sanı...

Birdən təyyarə götürüldü. Yerlə getdi, getdi və qalxdı havaya. Elə bil Nəsiri kimsə başladı göbəyinin altından qıdıqlamağa. Təyyarə qalxdıqca Nəsirin ürəyi də yuxarı dartınırdı. Nəsir gözlərini ”ne kurit” yazılmış işıqlı şüşə lövhəyə zilləyib bərkdən:

-Ya allah, sən özün saxla! - dedi.

Və Əlibala anladı ki, Nəsir təyyarəyə başının tükü sanı minməyib, Nəsir, bəlkə də, birinci dəfədir ki, təyyarəyə oturur. Nəsir gözlərini şüşə lövhədən çəkmirdi və hərdən: ”Əlibala, bircə nöqtəyə bax ha, - deyirdi, - yoxsa qusarsan. Qabağa bax... Mənim kimi..”

Amma Əlibala qabağa baxmaq istəmirdi, yerə baxmaq istəyirdi; Vay dədem vay! Evlər nə bapbalaca görünür. Maşınlar nə boydadı... Elə bil oyuncaq maşınlardı..

- Əlibala!

- Hə!

- Qorxmursan ki?

- Yox, Nəsir əmi, qorxmuram.

- Qorxma, gözümüzü yumub açınca Bakıya çatacağıq.

Əlibala üzünü təzədən pəncərəyə çevirdi. Təyyarə bir tərəfi üstə əyildi və Əlibalaya elə gəldi ki, yer də əyilib çəpinə dayandı.

- Əlibala!

- Hə!

- Ürəyin qalxmır ki?!

- Yox, Nəsir əmi, qalxmır!

- Qabağa bax ha!.. Mənim kimi!

Əlibala gördü ki, Nəsirin gözləri irilənib, rəngi-rufu avazıyıb, boyun-boğazından, alnından tər süzələnir, qalın bığının tükləri biz-biz dayanıb.

Nəsir iki-üç dəfə udqunandan sonra astaca öyüdü, o dəqiqə də əlilə ağzını qapadı. Yan tərəfdə oturmuş cavan oğlan:

- Əşi, ürəyin qalxır? - dedi.

Nəsir gözlərini şüşə lövhədən çəkmədən başını tərpətdi. Cavan oğlan:

- Çağır, gəlsinlər də, - dedi. - Onlarda kağız torbalar var, birini versinlər, tut ağzına.

Nəsir əlini dodaqlarından çəkib bərkdən çağırdı.

- Qrajdanka!

Əlibala başa düşdü ki, Nəsir təyyarə sürənlərdən birini çağırır. Bir az utandı. Əlibala, bilirdi ki, təyyarə sürənlərin hamısı kişidi, onların içində ”qrajdanka” yoxdu.

Nəsir bir də çağırdı:

- Qrajdanka!

Təzədən ağzını doldururdu ki, ”qrajdanka” deyib qışqırsın, yanındakı cavan oğlan qoymadı.

- Əşi, sağ əliyin altındakı knopkanı bas, - dedi.

Nəsir gözləri şüşə lövhədə, sağ əlini irəli-geri nə qədər gəzdirdisə də, düyməni tapa bilmədi. Axırda cavan oğlan əyilib düyməni özü basdı.

Nəsirin dodaqlarında qan qalmamışdı. Əlibalanın yazığı gəldi ona. Əlini Nəsirin çiyninə qoyub:

- Qorxma, Nəsir əmi, qorxma dedi.

Nəsir bir gözünün ucuyla Əlibalaya baxıb, təzədən nəzərlərini şüşə lövhəyə zillədi.

- Qorxmuram, ə, - dedi. - Zəhirmar aşdan çox yemişəm, düyü ürəyimi bulandırır.

Təyyarəçi geyimində lap sütül bir oğlan gəldi - işini ehtiyatlı tutmuşdu - əlində kağız cürcənək vardı. Nəsir oğlanı görən kimi:

-Davay bumajnı meşok, - dedi və torbanı oğlanın əlindən qapıb, ağzına tutdu.

Təyyarəçi gedəndən sonra yanındakı cavan oğlan Nəsirdən soruşdu:

-Əşi, samolyota birinci dəfədi minirsən?

Nəsir başını tərpətdi, amma elə tərpətdi ki, bilinmədi ”hə” deyir, yoxsa ”yox”.

Bakıya çatanacan Nəsir çənəsini torbanın içindən çıxartmadı...

Təyyarə limanının qabağındakı balaca çayxanaya girəndə də Nəsirin rəngrufu hələ üstünə gəlməmişdi. Nəsirin dodaqları səyriyirdi, deyəsən, gülümsəmək istəyirdi, amma ağıllı-başlı gülümsəməyə elə bil heyi, gücü çatmırdı.

Bir stəkan çay içəndən sonra Nəsirin rəngi də açıldı, dili də.

- Ölmüşdüm, - ə, - dedi. - Neçə adamdan eşitmişdim ki samalyotda oturanda gərək düz qabağa baxasan, ha baxdım, genə əncam olmadı; başım gicəlləndi... Kişi də ayağını yerdən üzərmi, ə? Hayıf döyül maşın?

Amma təyyarədə uçmaq Əlibalanın xoşuna gəlmişdi. Əlibala bu gün quşlardan da yuxarı qalxmışdı. Həmişə altdan baxdığı ağappaq buludları yarıb keçmiş, yerin nə qədər böyük, ucsuz-bucaqsız, min rəngli olduğunu görmüşdü və bununçün Nəsirə minnətdar idi.

Nəsir çayı nəlbəkiyə töküb üfürə-üfürə içirdi və hər üfürdükcə qalın bığı quş qanadları kimi qalxıb enirdi. Əlibala fikirləşdi ki, bu qalın bığ Nəsirə qətiyyən yaraşmır; Nəsirin üzü bapbalacadır, arıqdır-bığ üzünü örtüb onun və yəqin ki, belə bığla Bakıya gəlmək ayıbdı.

Nəsir kepkasını çıxardıb dizinin kündəsinə qoydu, yaylıqla başının dazını, boyun-boğazını sildi. Birdən yadına, nəsə, gülməli bir şey düşdü və başladı astadan gülməyə.

- Qırx beş yaşım var, - dedi, - hələ belə qaravəlli işə düşməmişdim... Samalyotda ürəyim qalxanda fikirləşdim ki, ayə, görəsən neynəyim ki, ürəyim qayıtsın geri. Başladım yadıma turş şeylər salmağa. Öz-özümə dedim: turşu-lavaş. Zəhrimar yumurta qayqanağı gəlib durdu gözlərimin qabağında. Dedim: alça... adamın dişlərini qamaşdıran turş alça... Gördüm, yox, sən öləsən, qayqanaq gözümün qabağından getmir ki, getmir. Dedim: nar... turşməzə nar... Gördüm, yox ey, yumurta qayqanağı gəlib durub burnumun altında, yağın iyi vurur məni. Bildim ki, ürəyimin qalxmağını dayandıra bilməyəcəm. Dedim: əşi, cəhənnəmə ki, lap yumurta qayqanağı, özü də quyruğ yağıynan. Onda başladım öyüməyə.

(ardı növbəti sayımızda)